Övladı valideyn dünyaya gətirir. Ancaq o vətənin, dövlətin, millətin, bir sözlə cəmiyyətindir. Bu, birmənalı belədir. Odur ki, övladın yetişməsində ailəsi ilə bərabər çevrəsinin, mühitin, ictimai təbliğat maşınının mühüm rolu var.

Bəli, övlad cəmiyyətindir, dövlətin və xalqındır, sonra, həm də valideynindir. Valideyn övladın mayakı sayılır. Ona istiqamət verə, yönəldə, mümkün bütün təhlükələrdən xəbərdar edə bilər. Qalan şeylərdə bütün seçim və icra hüququ övladındır.

İndi gələk əsas məsələyə, məktəbdən yetişdirilən yeniyetməyə, vətənin pərvəri olanlara, Qarabağı görmədən QA-RA-BAĞ hayqıran, can fəda edən balalara, övladlara, məktəblilərə, şagirdlərə.




Azərbaycanın şanlı tarixinə, 10 noyabr qızıl hərflərlə daxil oldu. Uzun illərdir işğalda olan torpaqlarımız öz həqiqi sahiblərinə qayıtdı. İşğaldan azad olunmuş Qarabağımızda günəş yenidən doğdu.

Azərbaycanın Dövlət-Ordu-Xalq Birliyinin gücü, savaş meydanında qəhrəmanlıq dastanı yazan oğul və qızlarının şücaəti düşmənin dünyada 30 ildə yaratmağa cəhd etdiyi mifi 44 gündə alt-üst elədi. Bu müddət ərzində Ermənistan və onun havadarları tərəfindən hərbi əməliyyatları dayandırmaq üçün Azərbaycana diplomatik və siyasi təzyiqlər göstərilirdi. Ali Baş Komandan İlham Əliyev qətiyyətli siyasi iradəsini nümayiş etdirdi, bütün təzyiqləri dəf edərək, öz prinsipial mövqeyindən dönmədi. Prezident İlham Əliyevin dünyanın aparıcı mediasına verdiyi çoxsaylı müsahibələr dünya informasiya məkanında ölkəmizə qarşı olan hücumları darmadağın etdi.